# TAHİRƏ HƏSƏNZADƏNİN "AZƏRBAYCAN KİTABI"* HAQQINDA BİR NEÇƏ SÖZ

2020-ci ilin pandemik atmosferi qlobal iqtisadiyyatın bir çox sahələri kimi, nəşriyyat və kitab ticarəti sektoruna da təsirsiz ötüşmədi. Bu ilin ilk altı ayı ərzində kitab çapının, satışının və yarmarkalarının həyata keçirilməməsi nəticəsində dünya nəşriyyat-poliqrafiya təsərrüfatı son 70 ilin ən ağır iqtisadi təsirlərinə məruz qalmış oldu.

Sənəd-informasiya mühitində ümumi poliqrafik aktivliyin xeyli zəifləməsinə baxmayaraq, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun sözügedən dövr ərzində 22 adda kitab nəşr edə bilməsi və bununla bir çox yerli elmi-tədqiqat müəssisələrini arxada qoyması ilk baxışdan nə qədər ekstensiv inkişaf təsiri doğursa da, əslində, intensiv elmi zəhmətkeşliyin bəhrəsidir. Elmi yaradıcılıq fəaliyyətində əməksevərliyi, ardıcıl və dəqiq yanaşmaları ilə seçilən həmkarımız, dəyərli alim, tarix üzrə elmlər doktoru, professor Tahirə Həsənzadənin "Azərbaycan kitabı" da Əlyazmalar İnstitutunun cari ildəki tədqiqat-təbliğat, nəşriyyat fəaliyyətinin uğurlu nəticələrindən biridir.

Adından da göründüyü kimi, yeni nəşr olunmuş kitabın mövzusu elə kitabdır, Azərbaycan kitabıdır. O Azərbaycan kitabı ki, həm tarix və mədəniyyətimizdir, həm elm və təhsil qaynağımızdır, həm də milli kimliyimizin yazılı inikasıdır. Əlbəttə, Azərbaycan kitabının və ümumiyyətlə, kitabın dərdləri də az deyil. Tale elə gətirib ki, kitab – insan əli ilə yaradılmış ən dəyərli, amma eyni zamanda, ən başıbəlalı predmetə çevrilib. Onu məsələn, təyyarə, telefon, yaxud da araba kimi istifadə edərək köhnəldib, sonra da yenisi ilə əvəzləmirlər. Və yaxud, formasını, strukturunu, tərkibini dəyişib başqa nəyəsə çevirmirlər. Əksinə, kitabı ya tam fiziki məhvə məhkum edir, ya da hər vəchlə qoruyub gələcəyə uğurlayırlar; ya hər imkanda yada salır, ya da tamamilə unutdurmağa çalışırlar. T.Həsənzadənin "Azərbaycan kitabı" bu cür paradoksal aqibətlə üzləşmiş kitab fenomenini obrazlı desək, yada salmaq, xilas etmək; Azərbaycan insanını bir az unudulmuş, bir az tarixin o tayına düşmüş, bir az da tanımadığı kitablarla tanış etmək təşəbbüsüdür. Şübhəsiz ki, "Azərbaycan kitabı" adlı kataloqdakı az qala 200 yaşlı kitablar ayrı-ayrı mütəxəssislərə yaxşı tanışdır. Ona görə ki, biblioqrafik tədqiqata cəlb olunmuş 873 adda kitabın bir qismi müxtəlif vaxtlarda tək-tək və ya cəm şəklində (məsələn, Ə.Mirəhmədovun "Azərbaycan kitabı" kataloqunda, Azərbaycan Kitab Palatasının külliyyatlarında, Əlyazmalar institutunun dövri elmi nəşrlərində və s.) təsvir olunaraq oxuculara təqdim edilib. Bununla belə, Tahirə xanımın "Azərbaycan kitabı" bir çox mənalarda orijinal və yenidir. Təkcə onu qeyd etmək kifayət edər ki, bu nəşr vasitəsilə dünyanın müxtəlif ölkələrində işıq üzü görmüş və Əlyazmalar İnstitutunun fonduna daxil edilmiş əski Azərbaycan çap kitablarının hamısı ilk dəfə vahid biblioqrafik təsvirə cəlb olunur.

"Azərbaycan kitabı" əhatə etdiyi buraxılış məlumatlarının dolğunluğu və sistemliliyi ilə də diqqəti cəlb edir. Xronoloji çərçivəsi təxminən birəsrlik tarixi (1831-1930-cu illər) əhatə edən "Azərbaycan kitabı" milli çap məhsulunun təşəkkül-tərəqqi dövrünün biblioqrafik güzgüsüdür. Bu dövrün Azərbaycan kitabı daşbasma üsulu (litoqrafiya) ilə çap olunmağa başlayaraq, XX əsrin əvvəllərindən etibarən yastıəsaslı nəşrdən rotasiya mexanizmli elektrik çapa qədər uzun bir yol keçib. Son əsrdə linotip, monotip və ofset üsulu ilə nəşr olunan müa-

* Həsənzadə, T. Azərbaycan kitabı / T.Həsənzadə. – Bakı: Elm və təhsil, – 2020. – 208 s.

sir Azərbaycan kitabından fərqli olaraq, əski çap kitablarımız bu gün artıq köhnəlmiş hesab olunan nəşriyyat-mətbəə üsullarının, texnologiyalarının tətbiq tarixini öyrənmək baxımından da əhəmiyyətlidir. Başqa sözlə, "Azərbaycan kitabı"nın səhifələrini vərəqlədikcə, XIX əsrin I yarısından XX əsrin əvvəllərinədək milli poliqrafiya sənayesinin bir növ maddi-texniki imkanlarını, dövrün mütaliə mədəniyyətinin tematik istiqamətlərini də izləmək mümkün olur. Bu mənada hörmətli Tahirə Həsənzadənin yeni kitabı təkcə mənbəşünaslıq, tarixşünaslıq və ya kitabşünaslıq obyekti deyil, eyni zamanda, böyük tarixi, elmi və bədii əhəmiyyət daşıyan əski çap kitablarının informasiya yükünü, sosial-kulturoloji dəyərini, hətta bədii-estetik mahiyyətini anlamağa yardım edən, yol açan mədəniyyət hadisəsidir.

Yekunda o da yada düşür ki, indiyədək kitablar haqqında çox fikirlər səsləndirilib, çox sözlər deyilib. Mənim isə baxışım belədir ki, kitab – hər bir xalqın milli məsuliyyət məsələsidir, nəsillərarası milli-mənəvi hesabatlılıq ənənəsinin göstəricisidir. Və bu məsuliyyətin dərki, hesabatın doğru-dürüst verilməsi millətlərin uğurlu gələcəyinə atılan körpüdür. "Azərbaycan kitabı" da hörmətli Tahirə Həsənzadənin elmi məsuliyyətinin təzahürüdür; Azərbaycan mədəniyyətinə və elminə hesabatıdır; keçmişə təəssübkeş baxışı, bugünə dəyərli töhfəsi, gələcəyə etibarlı səslənişidir.

**Cavid Cəfərov**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun şöbə müdiri,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*